# Rusiya mediası Azərbaycan Prezidenti İlham Əliyevin bu ölkəyə səfərini işıqlandırmaqda davam edir


LENTA.RU

Алиев назвал Россию основополагающей страной для безопасности на Кавказе

Президент Азербайджана Ильхам Алиев назвал Россию основополагающей страной для безопасности на Кавказе. Об этом он заявил на встрече с российским главой


Парламентская газета

Россия — основополагающая страна в плане обеспечения региональной безопасности на Кавказе, заявил президент Азербайджана Ильхам Алиев. 22 апреля он прибыл с рабочим визитом в Москву и встретился с российским лидером Владимиром Путиным.

В начале встречи Президент РФ предложил азербайджанскому коллеге обсудить вопросы безопасности в Кавказском регионе.


Алиев на встрече с Путиным отметил роль РФ в обеспечении безопасности на Кавказе

Алиев на встрече с Путиным отметил роль РФ в обеспечении безопасности на Кавказе

Суд арестовал всех обвиняемых по делу убийстве байкера в


pravda.ru

Президент Азербайджана подчеркнул важность взаимодействия с Россией для решения вопросов безопасности

Алиев: Россия является основополагающей страной в плане региональной безопасности

22.04.2024 16:59

В Баку выразили удовлетворение тем, как совместно с Россией решаются вопросы безопасности в регионе, сообщил президент Азербайджана **Ильхам Алиев**.


24 МИР РУБРИКИ ФИЛИАЛЫ

Путин: Развитие БАМа и Транссиба имеет большое значение для России и всего СНГ

Президент России Владимир Путин подчеркнул важность усилий по развитию Байкало-Амурской (БАМ) и Транссибирской (Транссиб) магистралей для России и для всего Содружества. Об этом он заявил на встрече с азербайджанским коллегой Ильхамом Алиевым.

Открывая встречу, Путин напомнил, что отец Ильхама Алиева, Гейдар Алиев, курировал прокладку БАМа.

«Все хорошо знают, что ваш отец сыграл значимую роль, возглавлял правительственную комиссию, многократно

**Rusiya mediası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ölkəyə işgüzar səfərini geniş şəkildə işıqlandırır.**

AZƏRTAC xəbər verir ki, "İzvestiya" nəşri diqqəti Azərbaycan və Rusiya prezidentlərinin görüşünün Rusiya sülhməramlılarının üç ildən artıq davam edən missiyadan sonra Qarabağdan çıxarılması fonunda keçirilməsinə çəkib. Qəzet yazır ki, iki ölkənin liderləri son dəfə təxminən bir il əvvəl - 2023-cü ilin mayında Moskvada Qarabağ münaqişəsinin nizamlanması üzrə üçtərəfli danışıqlar zamanı görüşüblər.

Politoloq Andrey Areşev "İzvestiya" nəşrinə müsahibəsində prezidentlərin görüşünün qapalı hissəsində daha bir əhəmiyyətli nəqliyyat layihəsinin, məhz Ermənistanın Sünik vilayətindən keçməli və sonra Türkiyəyə uzanan Zəngəzur dəhlizinin müzakirə olunduğunu istisna etməyib. Ekspert qeyd edib: "Amma İrəvan layihəyə kəskin etiraz edib və Azərbaycan rəhbərliyi İran ərazisindən alternativ marşrut təmin etmək qərarına gəlib ki, bu həmçinin Rusiya üçün də logistika nöqteyi-nəzərindən əlverişli olacaq".

"Rossiyskaya qazeta" nəşri yazır ki, Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü əsnasında Heydər Əliyevin BAM-ın tikintisinə böyük töhfəsini qeyd edib. Qəzet yazır: "RF Prezidenti Vladimir Putin Kremldə Azərbaycanın mərhum liderinin oğlu və varisi İlham Əliyevlə görüşdə bildirib ki, müstəqil Azərbaycanın birinci Prezidenti Heydər Əliyev Baykal-Amur Magistralının (BAM) tikintisinin fəal iştirakçılarından biri olub, Rusiyada bunu xatırlayırlar".

"Parlamentskaya qazeta" qeyd edir ki, Rusiya Prezidenti Vladimir Putin Azərbaycanın lideri İlham Əliyevlə regional təhlükəsizlik məsələlərini müzakirə edib. Qəzet Putinin sözlərini sitat gətirir: "Bu kontekstdə çoxlu məsələlər var və onlar çox həssasdır". NTV telekanalı da Azərbaycan Prezidenti İlham Əliyevin Moskvaya səfəri barədə geniş material hazırlayıb. Qeyd olunub ki, dövlət başçıları regional təhlükəsizlik, iqtisadi əməkdaşlıq, humanitar sahədə əlaqələrlə bağlı məsələləri geniş müzakirə ediblər.

"MİR" telekanalı, "Moskovski komsomolets", "Qazeta.ru", "Lenta.ru" qəzet və portalları, o cümlədən Sankt-Peterburq, Tatarıstan Respublikası və digər regionların mediası da Prezident İlham Əliyevin Moskvaya səfəri haqqında materiallar dərc edib.

Azərbaycan.- 2024.- 24 aprel, № 82.- S.4.